Təkrarlanan ödəniş seçimi etməklə mövcud əməliyyatın Sizin istəyinizə uyğun olaraq təyin edilmiş son tarixə qədər avtomatik olaraq həyata keçirilməsi mümkündür. Bunun üçün, İlkin icra tarixi, qüvvədən düşmə tarixi və Ödəniş tezliyini müəyyən etmək lazımdır.




Digər Məlumatlar bölmələrindən Ödənişin tarixi, Ödənişin təyinatı və Komissiya hesabı məlumatları daxil edilir. Bundan əlavə, hazırlanmış yeni ödənişi şablon olaraq qeyd edərək növbəti ödənişlər zamanı istifadə etmək üçün yaddaşda saxlamaq mümkündür. Bunun üçün **Şablon növü** seçərək ödəniş yaddaşda saxlanır.




Köçürməni həyata keçirmədən öncə, Siz limitlərə baxmaq, qaralama kimi yaddaşda saxlamaq, şablon kimi əlavə etmək imkanlarınız vardır. **Limitlər** bölməsinə daxil olaraq Siz gün ərzində həyata keçirdiyiniz əməliyyatların sayı və məbləği ilə tanış ola və gün ərzində istifadə edə biləcəyi limitlərə nəzarət edə bilərsiniz.




Limitlər bölməsində tətbiq edilən limitlər, gün ərzində limitlərdən istifadə (əməliyyat və məbləğlə bağlı) və limitlərdən istifadənin analitikası ilə tanış olmaq mümkündür.




Qaralama kimi qeyd etmək düyməsini seçərək tamamlanmamış və ya digər səbəbdən həyata keçirilməmiş ödənişin yadda saxlanması üçün istifadə oluna bilər. Qaralama kimi qeyd etmək düyməsi seçdikdə Yaddaşa yazmaq pəncərəsi açılır. Burada Qaralamanın adını qeyd edərək ödənişi yadda saxlamaq mümkündür.




Eyni formatda olan ödənişlər vaxtaşırı edildiyi zaman ödənişi Şablon kimi yadda saxlamaq mümkündür. Bu zaman mövcud şablonlar siyahısından ödəmələrdən birini seçib bütün məlumatları yenidən doldurmadan, kiçik dəyişikliklər edərək ödənişi tez bir zamanda həyata keçirmək mümkündür. Bunun üçün yeni ödəniş üçün Şablon növünü seçərək (Özəl, Hər kəsə) Şablon kimi əlavə et düyməsini seçmək lazımdır. Bu zaman Yaddaşa yazmaq pəncərəsi açılır. Şablon adını qeyd edərək yeni ödənişi yaddaşda saxlamaq və gələcəkdə ondan istifadə etmək imkanı yaranır.



İcra etmək düyməsinə seçərək Siz əməliyyatın bütün təfərrüatlarını ekranda görür. Məlumatlarda xəta varsa **Dəyiş**, bütün məlumatlar düzgün olduğu halda isə Təsdiq et düyməsini seçərək davam etmək




lazımdır.

Təsdiq et seçimi edildikdə təsdiq üçün mobil telefona OTP kod göndərilir. OTP kodu boş xanaya qeyd edərək Təqdim et düyməsi seçdikdə əməliyyat tamamlanmış sayılır.



# TƏKRARLANAN (DÖVRİ) ÖDƏNİŞLƏR

Internet Bank daxilində ölkədaxili, öz hesabları arasında, bank daxili və büdcə/vergi ödənişləri üzrə dövrü (təkrarlanan) ödənişlərin edilməsi mümkündür. Dövri ödənişlər:

- Aylıq
- Həftəlik
- Günlük
- Bir gündən bir
- Bir aydan bir formasında icra edilə bilər.

Ödəniş yaradıldığı zaman onu təkrarlanan kimi seçib müddəti seçmək lazımdır. İlk ödəniş müddəti mütləq surətdə iş günü olmalıdır.

Əgər ödəniş edilən günə hesabda vəsait olmazsa, system növbəti 3 iş günü ərzində yenidən onu göndərməyə səy göstərir. 3 gün ərzində cəhdlər uğursuz olarsa həmin müddət üçün olan dövri ödəniş icra olunmur, lakin növbəti ödənişlər yenə də öz növbəsini gözləyir.

Təkrarlanan ödənişlərə baxış üçün **Ödənişlər** menyusundan **Təkrarlanan ödənişlərə baxış** alt-menyusunu seçmək lazımdır. Təkrarlanan ödənişlərə baxış menyusundan **Ödəniş hesabı, Əməliyyat tarixi, İstinad nömrəsi və Tezliyin növü** filtrlərindən istifadə edərək axtarış aparmaq mümkündür.




Filtrlərə axtarışa uyğun məlumatlar daxil edildikdən sonra **Təqdim** etmək düyməsi seçilir. Sistem məlumatları aşağıda qeyd edilən təqdim edir.






| İstinad № | Status | Məbləğ | Hesab | Biznes Mərkəz | İlk icra tarixi |
|---|---|---|---|---|---|
| 005WIAZ163410002 | Active | AZN 123.00 | 40060AZNHC01XXXXXXXX | Bridge Plaza Business Centre | 08-12-2016 |
| 005WIIN163490001 | Active | AZN 100.00 | 40060AZNHC01XXXXXXXX | Bridge Plaza Business Centre | 16-12-2016 |

Filtrlərə axtarış **İstinad nömrəsi**nə sıxaraq təkrarlanan ödəniş barəsində daha geniş məlumat əldə etmək mümkündür. **Geri** düyməsinə sıxaraq geri qayıtmaq və ya **Çap (** **)** düyməsinə sıxaraq məlumatları çap etmək mümkündür.

İstinad № : 005WIAZ163410002

### Uzunmüddətli ödəniş tapşırığının təfərrüatları

| | | | |
|---|---|---|---|
| Başlanğıc tarixi : | 08-12-2016 | Bitirilmə tarixi : | 31-12-2016 |
| tezlik : | Həftədə bir dəfə | | |

### Əməliyyat təfərrüatları

| | |
|---|---|
| Ödəniş hesabı : | 40060AZNHC01XXXXXXXX |
| Təyinat hesabı : | AZ65AIIB33070019441XXXXXXXX |
| Ödənilən məbləğ : | 123.00 |
| Valyuta : | AZN |

Fakt : test best west east

Geri

# BEYNƏLXALQ ÖDƏNİŞLƏR

Beynəlxalq ödənişləri həyata keçirmək üçün, Ödənişlər menyusundan Beynəlxalq ödənişlər düyməsinə seçmək lazımdır. Mövcud şablon ödənişini seçib ödənişə davam etmək istədikdə Şablonu seçin, yeni ödəniş həyata keçirmək istədiyi halda isə Yeni Ödəniş  düyməsini seçmək lazımdır.




Ödəniş hesabı seçildikdə hesabda müvafiq məbləğin olub olmamasını *Balans* düyməsinə seçərək yoxlamaq olar.




Benefisiar haqqında məlumatlar bölməsində Benefisiarın adı, Hesab nömrəsi və Əlavə təfərrüatlar xanaları doldurulur.




Öncədən yaradılmış və yaddaşda saxlanan Benefisiar məlumatlarını Axtar ( ) düyməsini seçərək axtarışa vermək, və bütün boş xanaları yaddaşda olan benefisiar məlumatı ilə avtomatik tamamlamaq olar. *(İstifadəçi təlimatlarında Ayarlar  menyusunda Benefisiar haqqında məlumatlar bölməsinə baxın)*




Benefisiar bank rekvizitləri bölməsində SWIFT kod, Bankın adı, Bankın ünvanı, Şəhər və Ölkə məlumatları qeyd edilməlidir. Siz SWIFT kod xanasındakı Axtar ( ) düyməsindən istifadə edərək bank məlumatlarını axtara bilər.




Axtarış üçün Bankın adı və ya SWIFT kodundan istifadə etmək mümkündür. Axtar düyməsi seçdikdə mövcud bankların siyahısı sistem tərəfindən təqdim olunur. **Bankı seç** düyməsi seçdikdə digər bölmələr avtomatik olaraq sistem tərəfindən tamamlanır.







Müxbir Bank **haqqında məlumat** bölməsini doldurmaq məcbur deyil. Müxbir Bank haqqında məlumatlar doldurulduğu halda SWIFT kod, Bankın adı, Bankın ünvanı, Şəhər **və** Ölkə məlumatları daxil edilir. İstifadəçi SWIFT kod xanasındakı Axtar ( ) düyməsindən istifadə edərək bank məlumatlarını axtara bilər.




Axtarış üçün Bankın adı və ya SWIFT kodundan istifadə etmək mümkündür. Axtar düyməsi seçdikdə mövcud bankların siyahısı sistem tərəfindən təqdim olunur. **Bankı seç** düyməsi seçdikdə digər bölmələr avtomatik olaraq sistem tərəfindən tamamlanır.




Əgər istifadəçi SWIFT kodu daxil edib axtarış etdikdən sonra həmin kodla birdən artıq bank şöbəsi çıxarsa, SWIFT kod sonuna XXX əlavə etmək lazımdır.

İstifadəçi **Ödəniş təyinatı** bölməsindəki Ödənilən məbləğ, Köçürmə valyutası **və ödəniş tarixi** məlumatlarını tamamlayır. Köçürmə valyutası seçilmiş Ödəniş hesabının valyutasına uyğun olaraq avtomatik təyin olunur. Ödəniş tarixi sistem tərəfindən avtomatik olaraq əməliyyat günü üçün təyin olunur.




Digər məlumatlar bölməsindən **Ödənişin təyinatı** sistem tərəfindən təqdim olunan siyahıya uyğun olaraq seçilir. Təyinatla bağlı əlavə məlumatlar digər **Ödənişin təyinatı** xanalarına qeyd edilir.




Digər məlumatlar bölməsindən hesaba uyğun Komissiya hesabı seçilir. Bundan əlavə, hazırlanmış yeni ödənişi şablon olaraq qeyd edərək növbəti ödənişlər zamanı istifadə etmək üçün yaddaşda saxlamaq mümkündür. Bunun üçün **Şablon növü** seçərək ödəniş yaddaşda saxlanır.




Köçürməni həyata keçirmədən öncə, Siz limitlərinizə baxmaq, qaralama kimi yadda saxlamaq, şablon kimi əlavə etmək imkanlarınız vardır. Limitlər bölməsinə daxil olaraq Siz gün ərzində həyata keçirdiyi əməliyyatların sayı və məbləği ilə tanış ola və gün ərzində istifadə edə biləcəyi limitlərə nəzarət edə bilər.




Limitlər bölməsində tətbiq edilən limitlər, gün ərzində limitlərdən istifadə (əməliyyat və məbləğlə bağlı) və limitlərdən istifadənin analitikası ilə tanış olmaq mümkündür.




Qaralama kimi qeyd etmək düyməsini seçərək tamamlanmamış və ya digər səbəbdən həyata keçirilməmiş ödənişin yadda saxlanması üçün istifadə oluna bilər. Qaralama kimi qeyd etmək düyməsi seçdikdə Yaddaşa yazmaq pəncərəsi açılır. Burda Qaralamanın adını qeyd edərək ödənişi yadda saxlamaq mümkündür.




Eyni formatda olan ödənişlər vaxtaşırı edildiyi zaman ödənişi Şablon kimi yadda saxlamaq mümkündür. Bu zaman mövcud şablonlar siyahısından ödəmələrdən birini seçib bütün məlumatları yenidən doldurmadan, kiçik dəyişikliklər edərək ödənişi tez bir zamanda həyata keçirmək mümkündür. Bunun üçün yeni ödəniş üçün Şablon növünü seçərək (Özəl, Hər kəsə) Şablon kimi əlavə et düyməsini seçmək lazımdır. Bu zaman Yaddaşa yazmaq pəncərəsi açılır. Şablon adını qeyd edərək yeni ödənişi yaddaşda saxlamaq və gələcəkdə ondan istifadə etmək imkanı yaranır.




**İcra etmək** düyməsinə seçərək istifadəçi əməliyyatın bütün təfərrüatlarını ekranda görür. Məlumatlarda xəta varsa **Dəyiş**, bütün məlumatlar düzgün olduğu halda isə **Təsdiq et** düyməsini seçərək davam etmək lazımdır.



| | |
|---|---|
| Ödəniş: | Yeni ödəniş |
| Ödəniş hesabı: | 40160USDHC0190050919 006 90050919 |
| **Benefisiar haqqında məlumatlar** | |
| Alan müştərinin/Benefisiarın adı: | BMW Gmbh |
| Hesab nömrəsi: | DE89370400440532013000 |
| Benefisiara dair Əlavə Təfərrüatlar 1: | Am Olympiapark 2 80809 München |
| Benefisiara dair Əlavə Təfərrüatlar 2: | |
| Benefisiara dair Əlavə Təfərrüatlar 3: | |
| **Alan müştərinin/Benefisiarın bank rekvizitləri** | |
| SWIFT kod: | GENODEF1DVR |
| Bankın adı: | DITHMARSCHER VOLKS- UND RAIFFEISENB |
| Bankın ünvanı : | Markt 73 - 75, 25746 Heide |
| Şəhər: | HEIDE |
| Ölkə : | Germany |
| **Müxbir bank haqqında məlumat** | |
| SWIFT kod: | |
| Bankın adı: | |
| Bankın ünvanı : | |
| Şəhər: | |
| Ölkə : | |
| **Ödəniş təyinatı** | |
| Ödənilən məbləğ: | 30000 |
| Köçürmənin valyutası: | US Dollar |
| Komissiya məbləği: | 75.00 USD |
| Dərhal ödəniş: | 27-12-2016 |
| Ödəniş təyinatı1: | Ödəniş |
| Ödəniş təyinatı2: | car purchase |
| Ödəniş təyinatı3: | |
| Ödəniş təyinatı4: | |
| **Digər məlumat** | |
| Komissiya hesabı: | 40160USDHC0190050919 006 90050919 |
| Məktub/Sənəd xərcləri: | OUR |

Dəyiş | Təsdiq et

**Təsdiq et** seçimi edildikdə təsdiq üçün mobil telefona OTP kod göndərilir. OTP kodu boş xanaya qeyd edərək **Təqdim et** düyməsi seçdikdə əməliyyat tamamlanmış sayılır.



# KARTLAR

## KART MƏLUMATLARI

Kartlar haqqında məlumatlara baxmaq üçün idarəetmə panelindəki Kart menyusunda Kartlar haqqında məlumatlar seçimi edilməlidir. Bu zaman Sizə məxsus olan kartların siyahısını ekranda əks olunur. Kart hesab nömrəsinə daxil olaraq Kart hesabı və Qalıqları barəsində daha detallı məlumat almaq mümkündür. Bunun üçün Kart hesabını seçmək və həmin kart haqqında daha ətraflı məlumat əldə edə bilərsiz.

| Kart hesab nömrəsi | Kredit Kartının nömrəsi | Kart sahibinin adı | Əsas/ Əlavə kart | Valyuta | Qüvvədən düşmə tarixi | Risk Səviyyəsi | Kartın statusu |
|---|---|---|---|---|---|---|---|
| AZ67PAHA40150EURHK0190000724 | 471321JJEDCBXXXX | TEST TEST | Əsas | EUR | 04/19 | A | Aktiv Dəyiş |
| AZ40PAHA40060AZNHK0190000763 | 510306KYZLVRXXXX | TEST TEST | Əsas | AZN | 09/19 | B | Bağlanılıb |
| AZ45PAHA40060AZNHK0190010373 | 471321EYQMGXXXX | TEST TEST | Əsas | AZN | 09/17 | A | Aktiv Dəyiş |
| AZ89PAHA40060AZNHK0290010373 | 471321FYFXAXXXX | TEST TEST | Əsas | AZN | 09/17 | A | Aktiv Dəyiş |




Hesab nömrəsini dəyişərək kart hesabı və qalıqlar barəsində məlumatları digər hesablar üzrə də görmək olar. Hesabı seçdikdən sonra Təqdim etmək düyməsini sıxmağınız tələb olunur.

Kart məlumatları bölməsindən kartın məlumatlarını dəyişmək olar. Bunun üçün kart hesab nömrəsinə uyğun Kartın statusu sütunundan Dəyiş düyməsini sıxamaq lazımdır. Bu zaman sistem kartla bağlı mövcud tədbirlərin siyahısın təqdim edir. Müvafiq seçimi edərək Təqdim etmək düyməsini sıxmaq lazımdır.




Baxış ekranından bütün məlumatların düzgün olduğunu yoxladıqdan sonra Təsdiq et düyməsini sıxaraq davam etmək lazımdır.




Təsdiq et seçimi edildikdə təsdiq üçün mobil telefona OTP kod göndərilir. OTP kodu boş xanaya qeyd edərək Təqdim et düyməsi seçildikdə əməliyyat tamamlanmış sayılır.



## KART ÜZRƏ ƏMƏLİYYAT TARİXİ

Kartlar üzrə əməliyyatların tarixçəsinə baxmaq üçün idarəetmə panelindəki **Kart** menyusundan **Kartlar haqqında məlumatlar** seçimi edilməlidir.




İstifadəçi kart hesablarından birini seçərək **Başlanğıc və bitmə tarixlərini** təqvimə uyğun olaraq təyin edir.




**Əməliyyat növü** seçildikdən sonra **Təqdim etmək** düyməsinə sıxmaq lazımdır.



Sistem istifadəçinin qeyd etdiyi tarixlərdə kart ilə aparılmış bütün əməliyyatların siyahısını təqdim edir. **Yüklə** və **Çap et** düyməlerinə sıxaraq hesabatı yükləmək və çap etmək imkanları vardır.

Əməliyyatların başlanğıc tarixi 08-01-2010 son tarixi 22-12-2016
Kart hesab nömrəsi: AZ67PAHA40150EURHK0190000724
Hesabının valyutası: EUR

Yüklə | Çap e

| Əməliyyat tarixi | Əks olunma tarixi | Təsvir | Əməliyyat məbləği | Hesabın valyutası üzrə məbləğ | Xidmət haqqı | Kart nömrəsi | Əməliyyat nömrəsi |
|---|---|---|---|---|---|---|---|
| 19-05-2016 | 20-05-2016 | PASHA POS H2H JW MARRIOTTI | 99.00 AZN | 58.97 EUR | 0.29 AZN | 471321JJEDCB0077 | 7472300614100001234O483 |
| 25-05-2016 | 25-05-2016 | SCALINI PBT | 52.00 AZN | 31.30 EUR | 0.16 AZN | 471321JJEDCB0077 | 70003406146015904042811 |
| 24-05-2016 | 31-05-2016 | STYLEHOTEL VIENNA | 379.00 EUR | 379.00 EUR | 0.00 AZN | 471321JJEDCB0077 | 74463666147891479130345 |
| 30-05-2016 | 31-05-2016 | EVDE GURGU METBEXI | 268.00 AZN | 161.47 EUR | 0.81 AZN | 471321JJEDCB0077 | 74723006152000012641951 |
| 19-05-2016 | 01-06-2016 | PASHA POS H2H WOK RESTORAN | 219.00 AZN | 131.97 EUR | 0.66 AZN | 471321JJEDCB0077 | 74723006152000012567313 |
| 08-06-2016 | 08-06-2016 | BAKU CAFE | 65.00 AZN | 37.96 EUR | 0.19 AZN | 471321JJEDCB0077 | 70000006160015980441459 |

43-dən 1 - 10 qeydləri

Səhifə 1 Aid olduğu mənbə 5

# AYARLAR

## HESAB ÜZRƏ GÜZƏŞTLƏR MÖVCUDDUR

Siz Ayarlar bölümündə Hesab üzrə güzəştlər mövcuddur hissəsində İnternet Bankçılıqda mövcud olan Cari və Əmanət hesablarının, Ssudaların, Müddətli depozitlərin və Kartların adlandırılmasını dəyişdirmək imkanınız var.

Bunu dəyişdirmək üçün Siz dəyişdirmək istədiyiniz məhsulu seçirsiniz Hesabın adı bölməsində istədiyiniz adı qeyd edirsiniz və "Xoşa gələn" kimi qeyd etmək işarəsini qoyursunuz və Təqdim etmək düyməsini sıxırsınız.







Bu adları ləğv etmək üçün Hesabın adını ləğv etmək hissəsini işarələmək və Təqdim etmək düyməsini sıxırsınız.

## BENEFİSIAR HAQQINDA MƏLUMAT

Mövcud benefisiarları axtarmaq və vaxtaşırı istifadə olunan benefisiar məlumatlarını sistemə əlavə etmək üçün idarəetmə panelində Ayarlar bölümündən Benefisiar haqqında məlumat bölməsinə daxil olmaq lazımdır. Açılmış səhifədən yeni benefisiarları əlavə etmək (1), və mövcud benefisiarları axtarmaq (2) imkanları vardır.

1.
2.




Yeni benefisiarı əlavə etmək üçün ilk öncə siyahıdan **Əməliyyat növü** seçimini etmək və **Benefisiar üçün nümunəvi** seçimini etmək lazımdır.




Benefisiarı əlavə et səhifəsinin daxilində yeni benefisiar haqqında məlumatlar (İD, ADI, Vergi İD) daxil edilir.




**Benefisiar Bank rekvizitləri** bölməsində **Bank kodu** xanasının üzərində **Axtar** ( ) düyməsini sıxaraq axtarış meyarlarına uyğun olaraq Bank məlumatlarını avtomatik seçmək mümkündür.




Axtarış meyarlarından Bankın kodu, adı və ya SWIFT kod məlumatlarından birini dolduraraq axtarış etmək və uyğun bank məlumatını tapdıqda **Bankı seç** düyməsini sıxmaq kifayətdir.




Bütün məcburi xanalar doldurulduqdan sonra Göstərmək xanasından yeni yaradılmış benefisiar məlumatlarının başqa sistem istifadəçiləri tərəfindən görülməsinə hüquq vermək üçün **İctimai**, yalnız benefisiarı tərtib edən tərəfindən görülməsi üçün isə Özəl seçimi edilərək Əlavə et düyməsi basılır.




İstifadəçi qeyd edilən məlumatları baxış səhifəsində yoxladıqdan sonra **Təsdiq et** düyməsini basır.




Benefisiar uğurla əlavə edildikdə təsdiq mesajı sistem tərəfindən ekranda əks olunur.




Bu əməliyyatdan həyata keçirildikdən sonra istifadəçi Ölkədaxili ödənişləri həyata keçirdiyi zaman yaddaşda saxlanan Benefisiar məlumatlarını Axtar ( ) düyməsini sıxaraq axtarışa vermək, və bütün boş xanaları yaddaşda olan benefisiar məlumatı ilə avtomatik doldura bilər.

Mövcud benefisiarı Benefisiar haqqında məlumat bölməsindən axtarmaq üçün **Əməliyyat növü** seçib, xanalardakı məlumatların birini və ya bir neçəsini dolduraraq axtarışı həyata keçirə bilər.

| | | | |
|---|---|---|---|
| Alan müştərinin/Benefisiarın İD-si : | | Göstərmək : | Bütün |
| Alan müştərinin/Benefisiarın hesab nömrəsi : | | | |
| Alan müştərinin/Benefisiarın bankının adı : | | | |
| Alan müştərinin/Benefisiarın adı : | TEST | | |

Geri Axtar

Bu zaman benefisirla bağlı bütün məlumatlar ekranda əks olunur.

| | Alan müştərinin/Benefisiarın İD-si | Alan müştərinin/Benefisiarın adı | Alan müştərinin/Benefisiarın hesabının nömrəsi |
|---|---|---|---|
| ☐ | 218743 | TEST | AZ56PAHA35090AZNHC0190000121 |

İstifadəçi Benefisiar İD-ni seçərək daha detallı məlumatlarla tanış ola bilər.

| | |
|---|---|
| Əməliyyat növü: | Ölkədaxili ödənişlər |
| Alan müştərinin/Benefisiarın İD-si: | 218743 |
| Alan müştərinin/Benefisiarın adı/Təşkilat: | TEST |
| Alan müştərinin/Benefisiarın vergi İD-si: | 2185462486 |
| **Alan müştərinin/Benefisiarın bank rekvizitləri** | |
| Alan müştərinin/Benefisiarın hesabının nömrəsi: | AZ56PAHA35090AZNHC0190000121 |
| Bankın kodu (BIC/SWIFT): | 511306 |
| Bankın adı: | Paşa Bank ASC,Nərimanov şöbəsi |
| Göstərmək: | İctimai |

Bağla

İstifadəçi eyni zamanda xananı seçərək (☑) səhifənin aşağı sağ tərəfində yerləşən düymələrdən istifadə edərək Benefisiar məlumatlarını silə və ya dəyişdirə bilər.

Sil Dəyişdir

## POÇT QUTUSU

İsmarıcları tərtib etmək, tərtib edilmiş ismarıclara baxış və istifadəçiyə göndərilmiş ismarıcları yoxlamaq üçün idarəetmə panelində Ayarlar bölümündən Poçt qutusu alt-bölümünə daxil olmaq lazımdır.




İsmarıc tərtib etmək düyməsini sıxaraq istifadəçi Banka yeni mesaj göndərə bilər. Bunun üçün istifadəçi ilk öncə ismarıcın mövzusunu siyahıdan seçməlidir.




Növbəti addım olaraq istifadəçi ismarıc xanasını doldurur. İsmarıca əlavə olaraq faylın qoşulması mümkündür.




Bunun üçün Qoşma düyməsini sıxaraq, açılmış səhifədən faylı əlavə etmək və **Qoş** düyməsini sıxmaq lazımdır. Bir neçə fayl əlavə etməyə ehtiyac olduqda **Digər əlavə et** düyməsini sıxaraq yeni fayl əlavə etmək və yenidən Qoş əməliyyatını həyata keçirmək lazımdır. Fayylar əlavə edildikdən sonra **Edildi** düyməsi sıxılmalıdır.



Bütün addımlar tamamlandıqdan sonra Göndər düyməsini sıxaraq Banka ismarıc göndərilir. Bu zaman sistem göndərilən ismarıcın unikal kodunu ekrana çıxarır.

Məktubunuz banka göndərilmişdir. Sizin Messajın EN-si : 211709102122207

İstifadəçi göndərdiyi ismarıca baxmaq istədikdə **Göndərilən ismarıclar** bölməsinə daxil olur (1). Burada Banka göndərilən ismarıclarla bağlı əsas məlumatlara baxa və Mövzulardan birini aktivləşdirərək ismarıcın mətni ilə tanış ola bilər (2).

Göndərilən ismarıclar

| Messajın EN-si | Mövzu | Kimə | Müştərinin İD-si | Göndərilib | Qüvvədə o |
|---|---|---|---|---|---|
| 812984221122283 | Beynəlxalq ödənişlər | Mühasibatlıq Şöbəsi | 90010373 | 28-12-2016 15:55:26 | 28-05-2017 |
| 211709102122207 | eKommers (elektrom ticarət) | Mühasibatlıq Şöbəsi | 90010373 | 28-12-2016 15:49:31 | 28-05-2017 |
| 154585848106347 | Bankdaxili ödənişlər | Mühasibatlıq Şöbəsi | 90010373 | 21-12-2016 12:14:14 | 21-05-2017 |
| 124869498093616 | Ölkədaxili ödənişlər | Mühasibatlıq Şöbəsi | 90037140 | 14-12-2016 12:55:15 | 14-05-2017 |

1.




2.

İstifadəçi daxil olan poçtları həm səhifənin yuxarı sol tərəfində yerləşən Zərf düyməsindən istifadə edərək (1), həm də Poçt qutusu menyusundan Daxil olan poçt bölməsinə giriş edərək yoxlaya bilər (2).




1.




2.

İstifadəçi **Bülletenlər**-ə daxil olaraq Bank tərəfindən göndərilmiş məlumat xarakterli mesajlarla tanış ola bilər. Mesajların mətni ilə tanış olmaq üçün mövzuları aktivləşdirmək lazımdır.

Daxil olan poçt > Bülletenlər

| Mövzu | Alınıb | Qüvvədə olma müddəti sona çatır | Messajın EN-si | Göndərən |
|---|---|---|---|---|
| Test bullet | 25-10-2016 00:00:00 | 01-01-2017 23:59:59 | 615 | Bank Admin. |
| TEST | 31-08-2016 00:00:00 | 05-01-2017 23:59:59 | 417 | Bank Admin. |

**Qarşılıqlı yazışma** bölməsinə daxil olaraq Banka yazılmış ismarıclar üzərindən aparılmış yazışmaları görmək olar. Burada mövzuları aktivləşdirərək yazışmaların mətnini oxumaq mümkündür.

Daxil olan poçt > Qarşılıqlı əlaqələr

| Messajın EN-si | Mövzu | Müştərinin İD-si | Alınıb | Qüvvədə olma müddəti sona çatır |
|---|---|---|---|---|
| 812984221122283 | Beynəlxalq ödənişlər | 90010373 | 28-12-2016 16:14:07 | 28-04-2017 16:14:07 |
| 812984221122283 | Beynəlxalq ödənişlər | 90010373 | 28-12-2016 15:56:03 | 28-04-2017 15:56:03 |

## YENİ XİDMƏT ÜÇÜN MÜRACİƏT

Bu hissədə Siz Debet kartı və Kredit sifarişi edə bilərsiniz. Bunun üçün Siz istədiyi məhsulu seçirsiniz və Təqdim etmək düyməsini sıxır.

Debet kartı seçdikdə Siz müvafiq xanaları doldurub və Təqdim etmək düyməsini seçir. Kartı təcili əldə etmək istədiyiniz təqdirdə xananı işarələyirsiniz.

Sorğunu dəyişdirmək istədiyi təqdirdən isə Digər xidmət sorğu düyməsini seçirsiniz.




Məlumatların düzgünlüyünə əmin olduğunuz təqdirində Təsdiq et, məlumatlar üzərində dəyişiklik etmək üçün Geri düyməsini seçin.




Kreditin sifarişi üçün Siz Kredit sifarişi seçib Təqdim etmək düyməsini seçirsiniz. Debet kartı seçdikdə Siz müvafiq xanaları doldurub və Təqdim etmək düyməsini seçir.

Sorğunu dəyişdirmək istədiyi təqdirdən isə Digər xidmət sorğu düyməsini seçirsiniz.



## LİMİTDƏN İSTİFADƏ

İdarəetmə panelində Ayarlar menyusundan **Limitdən istifadə** seçimini edərək əməliyyatlar üzrə mövcud və istifadə olunmuş limitlərə baxmaq olar.




Əgər Sizin bir neçə istifadəçinin məlumatlarına çıxış hüququ varsa, limitə baxış zamanı yalnız Əsas (Primary) şəxsə aid olan limit məlumatları ekranda əks olunacaqdır. Bu səhifədə tətbiq edilən limitlər, gün ərzində limitlərdən istifadə (əməliyyat və məbləğlə bağlı) və limitlərdən istifadənin analitikası ilə tanış olmaq mümkündür.

| | |
|---|---|
| Əməliyyat: | Beynəlxalq ödənişlər |
| Başlanğıc tarix: | 29-12-2016 |
| Bitirilmə tarix: | 29-12-2016 |

⊟ Mənə tətbiq edilən limitlər

| | Başlama limiti | | Gündəlik icazə limiti | |
|---|---|---|---|---|
| | **Minimum əməliyyat limiti** | **Maksimum əməliyyat limiti** | **Əməliyyatların sayı** | **Gündəlik limit** |
| **İstifadəçinin səviyyə limitləri** | AZN 1.00 | AZN 1,000,000.00 | 200 | AZN 1,000,000.00 |
| **Müştərilərin getdikcə yüksələn səviyyə limitləri** | TO | TO | 200 | AZN 1,000,000.00 |

⊟ Verilmiş vaxt intervalında limitlərdən istifadə - İstifadəçinin səviyyə limitləri

| **Tarix** | **Əməliyyatların sayı** | **Gündəlik limit** |
|---|---|---|
| 29-12-2016 | 0 | AZN 0.00 |

⊟ Verilmiş vaxt intervalında limitlərdən istifadə - Müştərilərin getdikcə yüksələn səviyyə limitləri

| **Tarix** | **Əməliyyatların sayı** | **Gündəlik limit** |
|---|---|---|
| 29-12-2016 | 0 | AZN 0.00 |







Digər hesablar üzrə limitlər barəsində məlumatları **Ödənişlər** menyusundan əməliyyat həyata keçirilən zaman səhifənin aşağısındakı **Limitlər** düyməsinə sıxaraq almaq olar.



## SSUDA ALMAQ HÜQUQUNU HESABLAYICISI

Bu bölmədə Siz qeyd etdiyiniz şərtlərə uyğun ödəniş məbləği hesablanır:



## MÜBADİLƏ MƏZƏNNƏSİNƏ DAİR SORĞU

Bu bölmədə Siz gündəlik Bankın satış və alış məzənnəsi ilə tanış ola bilərsiniz:




| Hansı valyutadan | Valyutaya | Nağd vəsait alışı | Nağd vəsait satışı | Nağdsız alış | Nağdsız satış |
|---|---|---|---|---|---|
| DOLLAR (1 USD) | MANAT (AZN) | 1.811500 | 1.822500 | 1.808000 | 1.813500 |
| EURO (1 EUR) | MANAT (AZN) | 1.811000 | 1.906500 | 1.811000 | 1.897000 |
| POUND STERLING (1 GBP) | MANAT (AZN) | 2.166500 | 2.274000 | 2.166500 | 2.262500 |
| RUSSIAN RUBLE (1 RUB) | MANAT (AZN) | 0.028000 | 0.029300 | 0.028000 | 0.029100 |
| UAE DIRHAM (1 AED) | MANAT (AZN) | 0.472500 | 0.496100 | 0.472500 | 0.493600 |
| SWISS FRANC (1 CHF) | MANAT (AZN) | 1.701500 | 1.777100 | 1.701500 | 1.767600 |
| TURKISH LIRA (1 TRY) | MANAT (AZN) | 0.495000 | 0.519500 | 0.495000 | 0.516700 |

## MÜŞTƏRİ XİDMƏTLƏRİ

### İSTİFADƏÇİ İD-SİNİ DƏYİŞ

Siz Müştəri Xidmətləri bölməsinə girib İSTİFADƏÇİ İD-SİNİ DƏYİŞ hissəsinə daxil olursunuz. Mövcud istifadəçinin identifikasiya nömrəsi Sizin hal-hazırdakı İnternet Bankçılıq adınız görürsünüz. İstifadəçi İD-sini dəyişmək üçün Yeni İstifadəçi İD-sini müəyyən et bölməsində yeni sistem İD-sinizi qeyd edirsiniz. İstifadəçi İD-si Siyasətinə baxışda yeni istifadəçi üzrə bütün şərtlər əks olunub.

Daha sonra təhlükəsiz işarələri daxil edirsiniz və Təqdim etmək düyməsini seçirsiniz.



## ƏMƏLİYYATLAR BÖLMƏSİ

İnternet bank xidməti daxilində Sizin yaratdığınız, o cümlədən onun təsdiqini gözləyən bütün ödəniş tipləri və digər əməliyyatlar Əməliyyatlar menyusu vasitəsilə göstərilir.




Əgər istifadəçi olaraq hər hansı bir əməliyyatı başlamısınızsa, onun statusu barəsində "Başlanmış əməliyyatlar" bölməsi daxilində məlumatlarla tanış ola bilərsiniz.

"Başlanmış əməliyyatlar" daxilində hər bir əməliyyat növü üzrə statuslar ayrıca qeyd edilir. Əməliyyat növlərinə aşağıdakılar daxildir:

- Öz hesablarım arasında ödəniş
- Bank daxili köçürmə
- Ölkədaxili ödənişlər
- Vergi/büdcə ödənişləri
- Beynəlxalq ödənişlər
- Kütləvi (qarışıq) ödənişlər
- Valyuta mübadiləsi

Eyni zamanda qeyri-köçürmə xidmətləri il əlaqəli aşağıdakılar öz əksini tapır:

- Müştəri üçün benefisiarın daxil edilməsi
- Debit kartı üzrə istək
- Kreditin sifarişi

Yaradılmış ödənişlərə daha sonra baxdıqda onlar üzrə bu statusları görmək mümkündür:

- Yaradılmış – ödəniş onu yaradan tərəfindən tərtib edilibdir, lakin hələ heç kim onu təsdiq etməyibdir
- İcazə verilmişdir – ödənişi təsdiqləyən tərəf ona icazə vermişdir.
- Qəbul edilmişdir – ödəniş artıq internet bank vasitəsilə bütün təsdiqləri keçmişdir və bank onu icra etməyə qəbul etmişdir.
- Əməliyyat gedir – təsdiqlənmiş ödəniş hal-hazırda bank tərəfdən işlənilir
- Səlahiyyət verilmiş şəxs tərəfindən rədd edilmişdir – Yəni təsdiq sahibi olan şəxs ödənişdən imtina edib
- Rədd edilmişdir – ödəniş hansı sa səbəbdən bank tərəfindən rədd edilmişdir.
- Yarı-təsdiqlənmiş – Əgər yaradılmış ödənişi bir-neçə istifadəçi təsdiq etmişsə bu zaman tam təsdiqlər yığılanadək bu status çıxır.
- Tamamlanmış – ödəniş tam təsdiqlənib və bank sistemi vasitəsilə emal edilərək icra olunubdur.

Əməliyyatlar menyusu vasitəsilə hər bir ödənişin içinə daxil olaraq bu ödənişlərin təsdiqlənmə tarixçəsi ilə tanış olmaq mümkündür:



Əməliyyatlar menyusu daxilində təsdiqi gözləyən əməliyyatları həm statusları, həm də əməliyyatın valyutası üzrə filtrləmək mümkündür. Ekranın sağ küncündə yerləşən "Sıralama" hissəsi üzrə əməliyyat statusu və valyutası arasında seçmək mümkündür:




Hər bir əməliyyat tipinə basaraq həm əməliyyat növü üzrə ümumi məbləği və tək-tək ödənişləri görmək mümkün olacaq, eyni zamanda eyni valyuta üzrə olan əməliyyatların statusunu Excel, PDF, html və ya RTF formatında yükləmək mümkündür.







İstifadəçi istədiyi sütunları soldan sağa əlavə edərək fayl generasiya edə bilər.

Əməliyyatlar

| E-Bankçılıq İstinad № | Əməliyyat növü | Əməliyyat statusu | ...tarixində yaradılmışdır | ... tarixdə yeniləndi | ...tərəfindən yaradılmışdır | ... tərəfindən yeniləndi | Versiya | İstifadəçinin İstinad № | Hesab nömrəsi | Əməliyyat məbləği | İcra tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 84000056212 4532 | Ölkədaxili ödənişlər | Səlahiyyət verilmiş şəxs tərəfindən rədd edilmiş | 29-12-2016 09:40:27 | 29-12-2016 09:41:34 | PERSON04M N | PERSON09M N | 1 | Gunduz oglu 055 | 40050AZNHC 0190000724 | AZN 119.00 | 27-12-2016 |
| 13295489511 7842 | Ölkədaxili ödənişlər | Qəbul edilmişdir | 27-12-2016 10:59:27 | 27-12-2016 11:04:16 | PERSON04M N | PERSON09M N | 1 | Gunduz oglu 055 | 40050AZNHC 0190000724 | AZN 1,199.00 | 27-12-2016 |
| 88134369611 7183 | Ölkədaxili ödənişlər | Rədd edilib | 26-12-2016 19:48:22 | 26-12-2016 19:50:08 | PERSON04M N | PERSON09M N | 1 | 88134369611 7183 | 35090AZNHC 0190002579 | AZN 1,199.00 | 27-12-2016 |
| 16006257911 5227 | Ölkədaxili ödənişlər | Rədd edilib | 26-12-2016 10:23:29 | 26-12-2016 10:24:21 | PERSON04M N | PERSON09M N | 1 | 16006257911 5227 | 40060AZNHK 0190010373 | AZN 199.00 | 26-12-2016 |
| 11097256510 9163 | Ölkədaxili ödənişlər | Əməliyyat gedir | 22-12-2016 16:53:58 | 24-12-2016 22:50:31 | PERSON04M N | PERSON09M N | 1 | 11097256510 9163 | 40060AZNHC 0290022828 | AZN 500.00 | 23-12-2016 |
| 93444756410 2277 | Ölkədaxili ödənişlər | Əməliyyat gedir | 18-12-2016 19:32:54 | 21-12-2016 21:50:06 | PERSON04M N | PERSON09M N | 1 | 93444756410 2277 | 40060AZNHC 0190010373 | AZN 1,129.00 | 15-12-2016 |

Təsdiqi gözləyən əməliyyatlar daxilində istifadəçi onun icazəsini gözləyən və ya başqa istifadəçilərlə birlikdə təsdiq edəcəyi ödənişlərin siyahısını görür:




Əməliyyatın statusunun üzərinə basaraq onu təsdiqləyə və ya rədd edə bilər.




Əgər bir neçə əməliyyat seçilmişsə, bu zaman təsdiq əməliyyatı üçün 1 OTP şifrəsi daxil olur.

Təsdiq gözləyən məlumatlar eyni zamanda Sizin əsas səhifənizdə ekranın sağ küncündə çıxır. Bu 2 menyu üzrə məlumatlar eynidir.




Əməliyyatlar bölümü vasitəsilə göstərilən digər hissə isə şablonlar barəsində məlumatlardır. Hər bir ödəniş tipi üzrə yaradılmış şablonlar menyunun bu hissəsində öz əksini tapır.




Hər şablonun statusuna basaraq onun məzmunu barəsində məlumatlı olmaq mümkündür.